Çapa imzalanıb: 18.11.2021
Kağızın formatı: A5
Həcm: 41636
Tiraj: 100

AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ RUSİYA FEDERASİYASI İLƏ MÜNASİBƏTLƏRİ MİLLİ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ

İxtisas: 5901.01 «Beynəlxalq münasibətlər»

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **İlhamə Kavı qızı Ömərova**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2021**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Fəlsəfə üzrə fəlsəfə doktoru, professor
**Əlikram Zakir oğlu Abdullayev**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Firdovsiyyə Firdovsi qızı Əhmədova**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, prof.əv.
**Aida Məmməd qızı Yusifzadə**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Kərəm Cahangir oğlu Məmmədov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Zümrüd Eldar qızı Məlikova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30.Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

akademik
_______________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:

Siyasi elmlər doktoru, prof.əvəzi
_______________ **Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri:

Siyasi elmlər doktoru, prof.əvəzi
_______________ **Adil Mirabdulla oğlu Mirabdullayev**

Dissertasiyanın müdafiəsi 24 dekabr 2021-ci il tarixində saat 11:00da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, M.Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 noyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq aləmdə milli təhlükəsizlik problemlərinin tədqiqatının nəticələri göstərir ki, hər bir dövlətin milli təhlükəsizlik sisteminin qurulması və effektiv fəaliyyəti onun yerləşdiyi regiondan və oradakı beynəlxalq güclərin qarşılıqlı münasibəti ilə yanaşı həm də ölkə daxilində həyati vacib istiqamətlərdə uğurlu siyasətin həyata kecirilməsindən birbaşa asılıdır. Dövlətin milli təhlükəsizliyinin daxildən gücləndirilməsi prosesi onun xarici siyasət yolu ilə gücləndirilməsi mexanizmindən daha effektlidir. Daxili siyasətdə həmrəyliyə, o cümlədən, sosial-siyasi stabilliyə nail olan dövlət, hətta güclü müttəfiqləri olmasa belə, beynəlxalq münasibətlərdə xarici təzyiqlərə daha az məruz qalır.

Tədqiqat mövzusunun aktuallığını aşağıdakı müddəalarla ifadə etmək olar:

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin formalaşdırılmasının əsasını dövlətin fəaliyyətinə səmərəli təsir göstərən daxili və xarici kompleks amillərin düzgün qiymətləndirilməsi təşkil edir. Dövlətin milli təhlükəsizliyinə təhdid kimi çıxış edən mənbələrin müəyyənləşdirilməsi və neytrallaşdırılması, təhdidləri yarada biləcək şərait və faktorların nəzarətdə saxlanılması, ölkənin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunması milli təhlükəsizliyin təmin edilməsinin əsas vəzifələridir[1]. Bu konteksdə araşdırmaların aparılması mövzunun aktuallığı baxımından xüsusi əhəmiyyət kəsb edir şərtləndirən əsas amillərdən birincisidir.

Mövzunun aktuallığını ifadə edən müddəalardan biri də Rusiya Federasiyasının xarici siyasətində Azərbaycanın yerinin müəyyənləşdirilməsi zərurəti ilə bağlıdır;

Sovet İttifaqı dağıldıqdan sonra müstəqil dövlət olaraq meydana çıxmış Rusiya Federasiyası (RF) öz strateji hədəflərini gerçəkləşdirmək üçün beynəlxalq münasibətlərdə yalnız bir ölkənin hegemonluğuna qarşı çıxmağa başladı.[2] Bir tərəfdən, RF keçmiş Sovet İttifaqı

---

[1] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Bakı, 2007.

[2] Дугин А.Г., Евразийский реванш России. Битва за Россию. Издательство «Алгоритм»; Москва; 2014, с.14-15.

respublikalarında təsirini qorumağa çalışır, digər tərəfdən Şərq ilə Qərb arasında öz yerini tapmağa, Avropa ilə qarşılıqlı münasibətləri inkişaf etdirməyə, NATO-nun genişlənməsini cilovlamağa cəhdlər göstərirdi. Belə şəraitdə, Cənubi Qafqazı təsir dairəsində saxlamaq istiqamətində yürütdüyü siyasi, iqtisadi və hərbi siyasətin əsas ağırlığını Azərbaycana qarşı yönəltmiş Rusiya rəhbərliyi keçmiş SSRİ rəhbərliyinin Azərbaycanı ittifaq daxilində saxlamaq üçün həyata keçirdiyi təzyiq vasitələrindən imtina etmir, həmçinin, Ermənistanın ölkəmizə ərazi iddiaları planlarını bütün vasitələrlə dəstəkləyirdi.

Azərbaycanın yaşadığı keçid dövrü və Ermənistanın təcavüzünə məruz qalması bütün dövlət resurslarının milli təhlükəsizliyin təmin edilməsi məqsədi ətrafında birləşməsi zərurətini yaratmışdı. Milli təhlükəsizlik strategiyası dövlətin siyasi xəttinin əsas taktikasını müəyyənləşdirirdi ki, bu da mövzunun aktuallığını şərtləndirən əsas amillərdəndir.

RF-nın hərbi-siyasi, iqtisadi rəhbərliyinin Azərbaycanın zəngin karbohidrogen yataqlarının istismarı, istehsalı və ixracına müdaxilə etməyə çalışması tədqiqatın aktuallığını şərtləndirən məsələlərdən biridir.

Rusiyanın xarici siyasətində Azərbaycanla bağlı mühüm vəzifələrdən biri Moskva üçün həyati əhəmiyyət kəsb edən bölgə - Mərkəzi Asiyada (MA) cərəyan edən proseslərdə Cənubi Qafqaz (CQ) regionunun roludur. MA respublikalarının strateji əhəmiyyətli xammalının Qərbə maneəsiz axını, bu sahədə Rusiyaya alternativ təşkil etməklə yanaşı, enerji ehtiyatlarının nəqli xərclərindən məhrum olması deməkdir. Bu gün Azərbaycanın Gürcüstan vasitəsilə reallaşdırdığı əməkdaşlıq zolağı MA respublikaları üçün Qərbə təhlükəsiz, Rusiyanın nəzarətindən kənar perspektivli inteqrasiya imkanıdır. Məhz, Azərbaycanın bu proseslərdə aparıcı rolu, Türk dünyası ilə əlaqələri və Türkiyənin Mərkəzi Asiya və Şimali Qafqaza təsirini nəzarətdə saxlaması baxımından Moskva üçün regionda Bakının əhəmiyyətini artırır:

- İranın Azərbaycanla maraqları və regionda təsirini artırmaq amili də Azərbaycanın Rusiyanın maraq dairəsində saxlanmasını şərtləndirir.

- Bu gün beynəlxalq münasibətlər sistemində Cənubi Qafqazın geosiyasi və iqtisadi çəkisi, unikal coğrafi yerləşməsi, əlverişli tranzit imkanları dünyanın strateji regionu kimi səciyyələndirilməyə imkan verir. Strateji regionun aparıcı dövləti olan Azərbaycanda Rusiya və Qərbin iqtisadi, geosiyasi maraqlarının toqquşmasına qarşı AR-nın həyata keçirdiyi balanslaşdırılmış və bərabərhüquqlu tərəfdaşlıq münasibətləri də mövzunun aktuallığının əsas amillərindən biridir.

- Xəzərin statusu probleminin yaranma reallıqları, geosiyasi kökləri və bu məsələ ətrafında Xəzəryanı dövlətlərin apardıqları siyasətin məqsəd və istiqamətləri aktual məsələlər sırasındadır.

- Ermənistan-Azərbaycan münaqişəsinin regionda sülhün və sabitliyin yaranmasına uzun illər ciddi maneə olması və bu problemin region dövlətlərinin ümumi inkişafına neqativ təsir göstərmişdir. Azərbaycanın milli təhlükəsizliyinə qarşı əsas təhdid olan bu münaqişə Prezident İlham Əliyevin komandanlığı ilə 44 günlük Vətən Müharibəsi nəticəsində aradan qaldırıldı.

Yuxarıda göstərilən amillər və müddəalar seçilmiş tədqiqat mövzusunun kifayət qədər aktuallığını, dərin bir sistematik elmi təhlilin zəruriliyini müəyyənləşdirir.

Qeyd edilən amillər göstərir ki, Rusiya Federasiyası ilə münasibətlər kontekstində Azərbaycan Respublikasının milli təhlükəsizlik sisteminin qurulması və Rusiyanın Azərbaycanla bağlı strategiyasının xarakterinin müəyyənləşdirilməsi dissertasiya səviyyəsində araşdırılmasını vacib və aktual edir.

***Tədqiqat mövzusunun işlənmə dərəcəsi*** ilə bağlı əsas nəzəri-hüquqi mənbə kimi AR Konstitusiyası[1], AR milli təhlükəsizlik Konsepsiyası[2], AR hərbi doktrinası[3] və RF xarici siyasət Konsepsiyaları[4] götürülmüşdür.

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanunu). Bakı, 1997.

[2] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Bakı, 2007.

[3] Azərbaycan Respublikasının hərbi doktrinası // Bakı, 2010

4 Концепция внешней политики РФ (утверждена Президентом РФ В.В. Путиным 28 июня 2000 г.) //scrf.gov.ru/documents/25.html., Концепция внешней политики РФ (утверждена Президентом РФ В.В. Путиным 12 февраля 2013 г.), Концепция внешней политики РФ , 30 ноября 2016 г.

Mövzuya aid ədəbiyyatı təhlil edərkən əksər hallarda obyektivlikdən kənar ideoloji, təbliğat xarakterli təsiri duymaq olur: qərb yönümlü ədəbiyyat özünün rusofobluğu ilə seçilir, əks cəbhə isə qarşı tərəfi əzəli düşmən olaraq görmək meylinə sahibdir. Tədqiqat işinin mövzusuna dair tarixi, siyasi, humanitar və digər konteksələrdən olan materialların və sənədlərin öyrənilməsi araşdırmanın məntiqi özəlliyini dərk etməyə imkan verir.

Tanınmış xarici tədqiqatçılar S.Kornel, B.Buzan, S.Kaofmanın əsərlərində Qafqazda vahid təhlükəsizlik sisteminin qurulmasının zəruriliyinə dair fikirləri, bölgədəki sabitliyin regionun Rusiya, Türkiyə və İİR kimi aparıcı dövlətlərinin də maraqlarına cavab verməsi, RF-nin Şimali Qafqaz bölgəsinin daxil olduğu vahid təhlükəsizlik kompleksinin bir hissəsini təşkil etməsi barədəki qənaətləri tədqiq olunan mövzu baxımından maraq doğurur. [1]

Alman hüquqşünası K.Xeykonun əsərində Qafqaz regionunda cərəyan edən konflikt ocaqlarının yaranma və davam etmə prosesi konkret sənədlərlə hüquqi, siyasi və tarixi aspekdən araşdırılır.[2] R.Katler[3] müstəqilliyinin ilk illərində Azərbaycanda gedən siyasi-iqtisadi prosesləri politoloji aspektdən təhlil edir. Regionda baş verən müasir geosiyasi proseslərin dünya sivilizasiyasındakı yerini və rolunu Zb. Bjezinski ”Böyük şahmat taxtası” əsərində tədqiq etmişdir. [4] Regionda Ermənistan-Azərbaycan münaqişəsinin hərbi-siyasi aspektdən analizi, dövlətin ərazi bütövlüyünü qorumaq istiqamətində hərbi

[1] Корнелл Сванте, Конфликт в Нагорном Карабахе: динамика и перспективы решения. Москва, 2001 г.; Buzan, Barry, 1991. People, States and Fear. An Agenda for International Security Studies in the Post-Cold War Era. Second Edition. Colorado: Lynne Rienner Publishers Boulder. 318 p.;Buzan, Barry, and Ole Wæver, 2003. Regions and Powers. Cambridge, 298 University Press.; Каофман Стюарт, Современная ненависть: символическая политика этнической войны. (Итака, 2001) ; Крюгер Х. «Нагорно-Карабахский конфликт» Правовой анализ, Ваку, 2012.

[2] Крюгер Х. «Нагорно-Карабахский конфликт» Правовой анализ, Ваку, 2012.

[3] Катлер Роберт, « Развитие проблемы: 1990-1994.»

[4] Бзежинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы/ http://lib.ru/Politolog/America bzhezinskij.txt, Бзежинский. З., М.: Международные отношения, 2005.

qüvvələrimizin fəaliyyətinin obyektiv və subyektiv faktorlarını C.Araslıöz əsərində açıqlamışdır. [1]

Azərbaycan alimlərindən M. Qasımlı, A. Abbasbəyli, P.Darabadi, E.Əhmədov, A.Mirabdullayev, H. Babaoğlu, H.Məmmədova, E. Mirbəşiroğlu və başqaları[2] Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsasları, Rusiya–Azərbaycan münasibətlərinə, Rusiyanın CQ siyasətinə, Ermənistan-Azərbaycan DQ münaqişəsinin tənzimlənməsinə dair beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərə və Xəzər dənizinin statusu kimi problemlərə ardıcıllıqla və sistemli səkildə diqqət ayırmışlar.

Görkəmli dövlət və siyasi xadim Heydər Əliyevinrəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının xarici siyasət məsələlərini və dövlət başçısının fəaliyyətinin əsas məqamlarını əks etdirən

---

[1] Araслы Дж., Армяно-Азербайджанский конфликт Военный аспект. Центр стратегических и международных исследований Баку-1995

[2] Qasımlı M., Azərbaycan Respublikasının diplomatiya tarixi (1991-2003). II hissəli. Bakı – 2015. Qasımlı M., SSRİ-Türkiyə münasibətləri. II cilddə. Adiloğlu Bakı 2009 və b.; Abbasbəyli A.N., Dünya siyasəti (XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri). Dərslik . Bakı, 2011, Аббасбейли А., Внешняя политика Российской Федерации в XXI веке. Баку, Элм, 2005; Дарабади П., Геоистория Каспийского региона и геополитика современности. Баку – «Элм»-2002; Дарабади П., Каспийский регион в современной геополитике. Əhmədəv E., Ermənistanin Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin nəticələri. Qarabağ Azadlıq Təşkilatı "Qarabağ dünən, bu gün və sabah" Bakı – 2009.; Əhmədəv E., Ermənistanin Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011) Ensiklopedik nəşr. Bakı, 2012, 912 s. və b.; Mirabdullayev A., Müstəqil Dövlətlər Birliyi müasir beynəlxalq münasibətlərdə. Bakı, Elm, 2012. Babaoğlu H., Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu . Monoqrafiya. Bakı 2009.;Məmmədova H., XOCALI: Şəhidlər, şahidlər. Bakı. 2003.; Mirbəşiroğlu E., Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti // Tarix və onun problemləri, 2009, № 1-2.; Mirbəşiroğlu E., Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı. Elm, 2009.

məruzə, nitq və çıxışlarının toplandığı çoxcildli kitablar toplusu problemin təhlili üçün böyük əhəmiyyət kəsb edir. [1]

Eyni zamanda, Prezident İlham Əliyev Xəzər regionunun geosiyasi və iqtisadi vəziyyətinə həsr etdiyi əsərində ümumilikdə bölgənin daxili və xarici siyasi, iqtisadi, hərbi-strateji, ekoloji və sosial problemlərinin bir-biri ilə əlaqəli olduğunu çox geniş faktiki materiallar əsasında göstərmişdir. [2]

Azərbaycanın xarici siyasəti, regional və milli təhlükəsizliyi, Azərbaycanın konkret ölkələr və təşkilatlar ilə əlaqələrinin inkişaf dinamikasını əks etdirən elmi-nəzəri məsələlərin təhlilində əhəmiyyətli tədqiqatlar aparmış Azərbaycan müəlliflərindən R. Mehdiyev, Ə. Həsənov, A.Paşayev, V.Quluzadə və başqalarının adlarını çəkə bilərik. [3]

Azərbaycan Respublikasının XİN-nin "Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi" silsilə nəşri - Azərbaycanın xarici siyasə-

---

[1] Əliyev H. "Müstəqilliyimiz əbədidir", (46 cild-1 cild), Yazıçı Aleksandr Proxonovla müsahibə. ; Əliyev H. "Müstəqilliyimiz əbədidir", RF Prezidentinin Xəzərin statusunun tənzimlənməsi məsələləri üzrə xüsusi nümayəndəsi, XİN nazirinin müavini Viktor Kalyujnıy ilə görüşdə söhbət. 9 noyabr 2003-2017-ci il. (46 cild-31 cild) ; Əliyev H., Azərbaycanın istiqlal bayramı - Respublika gününə həsr olunmuş təntənəli yığıncaqdakı nitqindən. 27 may 1994 - //« Dirçəliş – XXI əsr» jurnalı, 1998, № 5.; Алиев Г., «Азербайджан на пороге XXI века и третьего тысячелетия». Газ. «Бакинский рабочий», от 30 декабря 2000 года.

[2] Алиев И., Каспийская нефть Азербайджана. Москва. Известия, 2003; Əliyev İlham "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinin suallarını cavablandırıb. /17 oktyabr 2016-cı il/. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi: http://president.az/articles/21409; IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində İ.Əliyevin nitqi;

[3] Mehdiyev R., "Azərbaycan Respublikası 1991-2001." Bakı 2001. Мехтиев Р.Э., Горис-2010: сезон театра абсурда. Информационно-аналитический центр по изучению постсоветского пространства. Москва 2010,; Həsənov Ə., "Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ." RF prezidenti B.B.Putinin Azərbaycana rəsmi səfəri (9-10 yanvar 2001-ci il) ; Həsənov Ə., Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005. Paşayev A., "XIX-XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları". Bakı. 2011.; Quluzadə V., Gələcəyin üfüqləri (AR-nın xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı: Azərbaycan nəşriyyatı, 1999

tinin vacib sənədlərinin xronologiyası tədqiqatın əsas mənbə bazasını təşkil edir. [1]

A.Piriyev, A.Rəcəblinin monoqrafiyalarında Azərbaycan Respublikasının daxili və xarici siyasət strategiyasına və milli təhlükəsizlik problemlərinə geniş yer verilir.[2] L.F.Mirzəzadə Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli münasibətləri milli təhlükəsizlik məsələləri aspektindən normativ-hüquqi sənədlərlə təhlil etmişdir. [3]

Regional təhlükəsizlik sistemlərinin formalaşması, funksional fəaliyyəti və inkişafı proseslərinə yanaşma, eləcə də, AR-nın davamlı inkişafı və Qafqazda təhlükəsizlik problemlərinin sistemli təhlili C. Eyvazovun monoqrafiyalarında tədqiq edilir. [4] Tədqiqatın əhatə etdiyi ayrı-ayrı məsələlərə dair araşdırmalarla bağlı rus tədqiqatçılarından A.Q. Duqin, E.Qaydar, Soqrin V., Çernyavskiy S.İ., Proxojeva A.A. və d. əsərləri, [5] CQ, Azərbaycan və Rusiya arasındakı ictimai-siyasi münasibətlərdə mövcud durumun ümumi mənzərəsinin öyrənilməsi və təhlilindən bəhs edən araşdırmaları diqqətə alınmışdır.

---

[1] Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi (2003-2008). AR XİN. Bakı. 2003, Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi (2005). AR XİN. Bakı. 2009 – II hissə,

[2] Piriyev A. M. Siyasi strategiya və milli təhlükəsizlik /A. Piriyev; Red.: F. Vahidov; B.: BDU, 2005.; Раджабли А.,Теория национальной безопасности. Метод.пособие. Баку 2005

[3] Мирзазаде Л.Ф. Нормативно-правовая основа двусторонних отношений Азербайджана и России . Серия: Юридические науки. 2012. №3(10)

[4] Эйвазов Дж., Державы и регионы: системный анализ безопасности постсоветского пространства. Стокгольм: Издательский дом CA&CC Press®, 2015.Эйвазов Дж., "Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики" , Баку . 2004.

[5] Дугин А., Евразийский реванш России. Битва за Россию. Москва; 2014; Гайдар Е., Гибель Империи. Уроки для современной России. «Российская политическая энциклопедия» (РОССПЭН); М.; 2006; Согрин В. «Политическая история современной России 1985-1994. от Горбачева до Ельцина», Москва, 1994 г. ; Чернявский С., Возможные пути урегулирования Нагорно-Карабахского конфликта в пост-Майендорфский период, Информационно-аналитический центр по изучению постсоветского пространства. От Майендорфа до Астаны: принципиальные аспекты Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта. и др.; Общая теория национальной безопасности. Учебник. профессора А.А. Прохожева. Москва – Издательство РАКС. 2002,

Bütövlükdə, baxılan mövzu ilə bağlı mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, problem müxtəlif aspektlərdən araşdırılsa da, bu qoyuluşda dissertasiya tədqiqatı aparılmamışdır ki, bu da təqdim olunan tədqiqat işinin əhəmiyyəti və dəyərini şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə münasibətlərində həyata keçirdiyi müstəqil, bərabərhüquqlu, balanslaşdırılmış daxili və xarici siyasəti,

**predmeti isə** Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə münasibətlərinin dövlətimizin milli təhlükəsizliyinə təsiri sahələri və istiqamətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri** tədqiq edilən mövzunun aktuallığı və xarakterindən irəli gəlir. Əsas məqsəd Azərbaycan-Rusiya siyasi münasibətlərinin ölkəmizin milli təhlükəsizliyinə təsirinin mühüm məqamlarını araşdırmaqdan ibarətdir.

Tədqiqat işi qarşısında qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Azərbaycan-Rusiya siyasi münasibətlərinə dair mənbə və ədəbiyyatları təhlil etmək və əsas cəhətlərini müəyyənləşdirmək;
- Dövlətlərarası münasibətlərin formalaşmasında milli təhlükəsizlik amilini əsaslandırmaq;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyi, onu şərtləndirən amilləri və istiqamətləri müəyyənləşdirmək;
- Rusiyanın Qafqaz siyasətinin təsirini, o cümlədən, RF ilə mövcud olan münasibətlərdən doğan maneələrin səbəb və nəticələrini araşdırmaq;
- Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyası və sisteminin formalaşdırılması prosesində Rusiya Federasiyası ilə qurulan yeni münasibətlərin konseptual, institusional (siyasi, hüquqi) əsaslarını, Azərbaycan Respublikasında milli təhlükəsizliyin təmin olunmasında siyasi və iqtisadi sabitliyin başlıca şərtlərini təhlil etmək;
- Rusiya Federasiyasının milli təhlükəsizlik siyasətində Azərbaycan Respublikasının yerini və əhəmiyyətini araşdırmaq;
- Azərbaycan və Rusiya arasında qarşılıqlı rəsmi səfərlərin siyasi, hərbi, iqtisadi münasibətlərdə əhəmiyyətini göstərmək;

- Azərbaycanın milli təhlükəsizlik maraqlarından irəli gələn -Rusiya ilə siyasi, iqtisadi, humanitar, hərbi, enerji və informasiya sahələrində əməkdaşlıq, terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizə fəaliyyətini qiymətləndirmək;

- Problemə dair elmi-nəzəri ümumiləşdirmələr aparmaq, Azərbaycan-Rusiya münasibətlərindəki perspektivləri göstərmək.

**Tədqiqat metodları.** Müstəqil Azərbaycanın milli təhlükəsizliyi kontekstində Rusiya ilə əməkdaşlığının əsas istiqamətlərinia dair Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarından irəli gələn konseptual yanaşmalar, eləcə də fundamental elmi əsərlər tədqiqat işinin nəzəri əsasını təşkil edir.

Elmi işdə Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyası və xarici siyasəti, Rusiya Federasiyasının xarici siyasət konsepsiyasına ümumi baxış əsas tutulmaqla mövzunun öyrənilməsində siyasi hadisələrə obyektiv yanaşma, ümumidən xüsusiyə keçid, müqayisəli və sistemli siyasi təhlil etmək, tarixilik, analiz, sintez, məntiqilik metodoloji üsulları tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

**-** Azərbaycan Respublikasında milli təhlükəsizlik sisteminin təşəkkülündə Rusiya Federasiyası ilə münasibətlər

- Azərbaycan Respublikasının milli təhlükəsizlik sisteminin təşəkkülünə Rusiyanın Qafqaz siyasətinin təsiri

- Beynəlxalq və regional təşkilatlarda Azərbaycan və Rusiya münasibətlərinə dair milli təhlükəsizlik məsələləri

- Azərbaycanın milli təhlükəsizliyi kontekstində Rusiya ilə münasibətlərində hərbi, informasiya, iqtisadi, humanitar sahədə əməkdaşlığı və perspektivlər

**Tədqiqatın elmi yeniliyi**. Elmi yenilik mövzunun aktuallığı və siyasi əhəmiyyəti nəzərə alınmaqla, eyni zamanda, tədqiqat probleminin quruluşu ilə müəyyənləşdirilmişdir:

- RF ilə münasibətlərin Azərbaycanın milli təhlükəsizliyinə təsiri geniş faktiki materiallarla əsaslandırılmışdır;

- Müstəqil Azərbaycanda ictimai-siyasi vəziyyət və milli təhlükəsizlik sisteminin qurulmasi mərhələlərində Rusiyanın maraqlarından doğan problemlər təhlil edilmişdir;

- Azərbaycanın RF ilə münasibətlərinin əsas istiqamətləri öyrənilmiş, milli təhlükəsizlik sistemi qarşısında mövcud olan vəzifələrin yerinə yetirilməsi prosesində RF ilə qarşılıqlı əlaqələrin rolunun tarixi-siyasi əhəmiyyəti və fəaliyyət strukturu tədqiq edilmişdir.

- Rusiya ilə münasibətlərdə AR-nın daxili və xarici siyasət strategiyası geniş araşdırılmışdır;

- RF-nin Qafqaz siyasətində Azərbaycan faktoru və Azərbaycanın tutduğu yerin mahiyyəti izah edilmişdir;

- Ermənistan - Azərbaycan DQ münaqişəsinin həlli prosesində Rusiyanın rolu və strateji maraqları təhlil edilmişdir;

- Müasir dövrdə milli təhlükəsizlik məsələləri kontekstində Azərbaycan - Rusiya əməkdaşlığının əsas istiqamətlərinin, siyasi-iqtisadi, hərbi və təhlükəsizlik problemlərinin araşdırılmasına elmi-tədqiqat işi kimi ilk dəfə cəhd göstərilmişdir.

- Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyası və sisteminin formalaşmasında Rusiya faktoru və Azərbaycanın milli təhlükəsizlik konsepsiyasına daxil olan vəzifələrin yerinə yetirilməsi prosesində RF ilə münasibətlərinin yeri elmi tədqiqat işi kimi ilk dəfə kompleks şəkildə sistemləşdirilmiş və araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəaları və nəticələri, Rusiya Federasiyası ilə münasibətlərin Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təsirinin mahiyyətinin aydınlaşdırılmasında və münasibətlərin milli təhlükəsizlik sistemi qarşısında mövcud olan vəzifələrin yerinə yetirilməsi prosesində faydalı ola bilər.

Azərbaycan - Rusiya münasibətlərinin milli təhlükəsizliyimizə təsir göstərən elementlərinin araşdırılmış nəticələri xarici siyasət sahəsində çalışan mütəxəssislər üçün vəsait ola bilər.

Azərbaycanın daxili və xarici siyasət strategiyasında RF ilə münasibətlərin əhəmiyyəti, beynəlxalq və regional təşkilatlarda qarşılıqlı münasibətlər və fəaliyyət, Rusiya Federasiyasının Qafqaz siyasətində Azərbaycan faktoru və Azərbaycan siyasətinin reallaşma mexa-

nizmləri ali təhsil müəssisələrində metodik vəsait kimi istifadə edilə bilər.

Müasir dövrdə milli təhlükəsizlik kontekstində Azərbaycan-Rusiya əməkdaşlığının siyasi, hərbi və təhlükəsizlik problemləri, perspektivləri, əsas istiqamətlərinə dair gələcək tədqiqatların, elmi araşdırılmaların aparılması, elmi konfransların keçirilməsində faydalı ola bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr iddiaçının Azərbaycanda və xaricdə müxtəlif elmi məcmuələrdə dərc edilmiş elmi məqalələrində, elmi-nəzəri konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix", “Beynəlxalq münasibətlər və xarici siyasət” və “Politologiya və siyasi idarəetmə ” kafedralarının birgə iclasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın strukturu və işarə ilə həcmi.** Dissertasiyanın strukturu giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat sıyahısından ibarətdir. Giriş 26344; I fəsil 95157; II fəsil 10553; III fəsil 60573; Nəticə 20423; bütövlükdə, tədqiqat işinin həcmi 342278 işarədən ibarətir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“Azərbaycan Respublikasında milli təhlükəsizlik sisteminin təşəkkülündə Rusiya Federasiyası ilə münasibətlər”** adlı birinci fəsil iki paraqrafdan ibarətdir. **“Dövlətlərarası münasibətlərin formalaşmasında milli təhlükəsizlik amili**” adlı birinci paraqrafda milli təhlükəsizlik sisteminin mahiyyəti, strategiyası, yaradılmasının məqsədləri, gücləndirilməsi yolları, regional münasibətlərin stabilləşdirilməsinə və beynəlxalq təhlükəsizliyin gücləndirilməsinə təsiri, bu

problemin beynəlxalq aləmdə tədqiqatının nəticələri konseptual şəkildə təhlil olunmuşdur.

Paraqrafda Rusiya rəhbərliyini postsovet dövründə Cənubi Qafqazı nəzarətində saxlamağa stimullaşdıran səbəblər, Moskvanın bu planlarının nəticələri və bölgəyə yönəlik xarici siyasətinin məqsədləri, həyata keçirdiyi preventiv aksiyalarla bağlı K.Straçota, S.Kornel, S.Çernyayevskinin təhlilləri araşdırılır.

Cənubi Qafqazın coğrafi xüsusiyyətlərinin təhlili aparılır və bu çərçivədə geosiyasi, geoiqtisadi, geostrateji aspektlər ayrılır. Cərəyan edən proseslərin region dövlətlərinin təhlükəsizliklərinin fundamental maraqları naminə həm öz aralarında, həm də qonşu ölkələrlə qarşılıqlı asılılıqda olduqlarını meydana çıxartması, etnik münaqişələrin tarixi aspektdən formalaşan alyansların və qarşıdurmaların region dövlətlərinin aparıcı aktorlarla münasibətlərinin təhlükəsizlik sistemlərinin formalaşmasında aktivləşdirdiyi uyğunluqlar və ziddiyyətlərə baxış təqdim olunur.

Birinci fəslin **“Azərbaycan Respublikasının milli təhlükəsizlik sisteminin təşəkkülünə Rusiyanın Qafqaz siyasətinin təsiri”** adlı ikinci paraqrafında Moskvanın “dövlətin təhlükəsizlik və xarici siyasət doktrinası” prizmasından ümumilikdə Qafqaza, regional və konkret olaraq Bakıya münasibətdə həyata keçirdiyi siyasi xəttin tarixi aspektləri, eləcə də müasir dövrü Z.Bzejinski, A.Utkin kimi strateqlərin fikirləri əsasında təhlil olunur. Həmçinin, Azərbaycanda 1992 - 1998-ci illəri əhatə edən hadisələr, hakimiyyət dəyişiklikləri, yeni rəhbərliyin ilk addımları, respublikanın MDB və Kollektiv Təhlükəsizlik haqqında Müqavilədə iştirakı ilə bağlı məsələlər, iki dövlət arasında münasibətlərin hüquqi əsasının yaradılması və ilk rəsmi sənədlərin imzalanmasına kimi proseslər təhlil edilir. Eləcə də uzun müddət mühüm əhəmiyyət kəsb edən “Avropada silahların ixtisarı və məhdudlaşdırılması barədə Müqavilə”yə əlavə olan Daşkənd Protokolunun tələblərinin yerinə yetirilməsi, Qəbələ RLS-in statusu, Xəzər dənizinin statusu, Azərbaycan – ATƏT münasibətləri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə “Minsk qrupu” formatının yaradılması məsələsində Moskvanın sərgilədiyi mövqeyə baxış təqdim olunur.

Paraqrafda mühüm məsələlər kimi Moskvanın Bakıya münasibətdə ənənəvi siyasəti, Rusiya-Azərbaycan və Rusiya-Ermənistan münasibətlərinin müqayisəsi, bu amilin Ermənistan-Azərbaycan, DQ münaqişəsinin gedişinə təsiri, ərazilərin işğalı və ölkədə xaosun yaranması prosesinin təhlili qeyd edilməlidir.

Paraqrafda nəzər salınan mühüm məsələlər kimi ümummilli lider Heydər Əliyevin timsalında yeni rəhbərliyin yürütdüyü siyasət, xüsusi ilə dövlət quruculuğu, milli təhlükəsizlik sisteminin formalaşdırılması, separatçılıqla mübarizə, milli ordunun döyüş qabiliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər, rəsmi Bakının mövqeyində əsaslı dəyişiklik yarada bilməyən Moskvanın atəşkəs barədə danışıqlara başlamaq təşəbbüsü və atdığı digər addımlar qeyd olunmalıdır.

**"Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının reallaşmasında Rusiya ilə münasibətlərin yeri"** adlı ikinci fəsil üç paraqrafdan ibarətdir. **"Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasının formalaşdırılmasında Heydər Əliyevin rolu"** adlı birinci paraqrafda Ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində müstəqilliyimiz və dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın unitar, hüquqi və demokratik dövlət kimi möhkəmləndirilməsi, yeni Konstitusiyanın qəbulu sahəsində atılan uğurlu addımlar, milli təhlükəsizlik konsepsiyasının və dövlət idarəçiliyi sisteminin qurulması prosesində RF ilə münasibətlər, Bakının siyasi kurs və strateji prioritetlərinin müəyyənləşdirilməsi tədbirləri təhlil edilmişdir. H.Əliyevin hakimiyyətə qayıdışı nəinki respublikada, bütün regionda cərəyan edən hadisələrin axarını dəyişəcək proseslərin əsasını qoydu.

Həmçinin, Rusiya hakimiyyət strukturlarında Azərbaycana münasibətdə aqressiv mövqedə olan hərbi-siyasi dairələrin milli maraqlarda güzəştə getmədən neytrallaşdırılması, müstəqilliyin qorunmasını təmin edəcək milli təhlükəsizlik konsepsiyasının əsasını təşkil edən dövlət idarəçiliyi sisteminin formalaşması prosesində Rusiya faktorunun siyasi baxımdan düzgün qiymətləndirilməsi, Bakının öz siyasi, hərbi, iqtisadi müstəqilliyini qoruyub saxlaması şərti ilə strate-

ji partnyorluğun əsasının qoyulması istiqamətində atılmış zəruri addımlar müzakirəyə təqdim olunmuşdur.

Paraqrafda həmin dövrdə RF ilə münasibətlərdə həllinə nail olunması mühüm əhəmiyyət kəsb edən aşağıdakı məsələlər ətraflı təhlil edilərək əsaslandırılmışdır:

Dağlıq Qarabağ münaqişəsi zonasında Rusiyanın Ermənistana verdiyi hərbi dəstəyi neytrallaşdırmaq,

RF hərbi kontingentinin respublikaya qaytarılması, Azərbaycanın dövlət sərhədlərinin nəzarətə götürməsi kimi dövlət müstəqilliyini məhdudlaşdıran məsələlərdə güzəştlərə gedilmədən atəşkəsi qorumaq,

Beynəlxalq qüvvələrin iştirakı ilə sülh danışıqlarının başlanmasına şərait yaratmaq və bu zaman Rusiyanın dominantlığına, Dağlıq Qarabağ separatçılarının müstəqil tərəf kimi iştirakına yol verməmək,

MDB və KTMT ilə bağlı milli maraqlara zidd olmayan siyasi qərar qəbul etmək,

RF-nin bəzi hərbi dairələrinin Azərbaycana qarşı çevriliş və separatçılıq ssenarilərini reallaşdırmalarına imkan verməmək,

Qəbələ RLS ətrafında cərəyan edən proseslərdən Bakının maraqları naminə yararlanmaq,

Xəzər dənizinin statusu ilə bağlı problemin həll edilməməsinə baxmayaraq, Qərb tərəfdaşlarının və Rusiyanın cəlb edilməsi ilə Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını qoyacaq neft-qaz ixracı və nəqlinə dair müqavilələri imzalamaq, bu layihələri RF-nın enerji ehtiyatlarına alternativ və rəqib kimi təqdim edən siyasi qüvvələri neytrallaşdırmaq;

RF-nın iqtisadi və nəqliyyat blokadasını aradan qaldırmaq,

Rusiyada azərbaycanlı diasporuna qarşı təzyiqləri, informasiya təbliğatını neytrallaşdırmaq;

RF ilə gələcək hərbi əməkdaşlıq üçün zəmin hazırlamaq;

Rusiya ilə gələcəkdə daha sıx, strateji partnyorluq əlaqələrinin yaradılmasına zəmin olacaq mühitin və Rusiya rəhbərliyində Azərbaycanın etibarlı tərəfdaş olduğuna dəstək verən siyasi qənaətin formalaşmasına nail olmaq,

Rusiyanı qıcıqlandırmadan NATO və Avroatlantik məkana inteqrasiya kursunu həyata keçirmək.

Araşdırmada H.Əliyevin RF-nın yeni rəhbərliyinə təsir göstərmək imkanında olan iki güç mərkəzi – hərbi və iqtisadi dairələri arasında olan nüfuz mübarizəsindən məharətlə istifadə etməsi və Bakı üçün əlahiddə əhəmiyyətə malik olan "Əsrin neft müqaviləsi"nin imzalanmasına nail olması kimi məqamlar tarixi faktlarla təqdim olunmuşdur.

İkinci fəslin **"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının reallaşması Rusiya ilə münasibətlər kontekstində"** adlı paraqrafında rəsmi Bakının Moskva ilə siyasi dialoqu prosesində meydana cıxan əsas ziddiyyətlər ətraflı təhlil edilmişdir. Xüsusilə, Azərbaycan rəhbərliyinin NATO ilə "Sülh naminə əməkdaşlıq" proqramını imzalaması, Azərbaycana qarşı informasiya müharibəsində Bakının daim Rusiyanı Gürcüstan vasitəsilə Ermənistanla bağlayan kəmər və kommunikasiya xətlərinin "partladılaraq sıradan çıxarılmasında ittiham edilməsi", "müharibənin yenidən başlanma təhlükəsi" faktorları ilə təzyiqlər göstərilməsi qeyd edilməlidir.

Bakıya qarşı mühüm təzyiq istiqamətlərindən biri də Azərbaycanın neft və qaz ehtiyatlarının nəqli məqsədilə çəkilən kəmərlər haqqında xarici tərəfdaşlarla danışıqların başlaması nəticəsində özünü göstərdi.

Təzyiqlərə baxmayaraq, H.Əliyev yorulmadan dövlət quruculuğu istiqamətində mühüm addımlar həyata keçirirdi. Çoxpartiyalı sistemin bərqərar olunmasını təmin edən ilk parlament seçkilərinin keçirilməsi gələcəkdə bir çox siyasi qərarların qəbulunda iştirak edəcək legitim qanunverici orqan yaradılmış oldu.[1] Həmin il növbəti fundamental əsası olan, demokratik normaları özündə əks etdirən yeni Konstitusiyanın qəbulu respublikada siyasi stabilliyin əsasının qoyulması və hakimiyyət strukturlarının formalaşdırılması prosesinə güclü təkan vermiş oldu.

Bundan sonra diqqət iqtisadiyyatın restruktizasiyası, əsas iqtisadi sərvət olan neft və qaz ehtiyatları üzrə müqavilələrin imzalanması is-

---

[1] Əsədov O, Cəbravılov R., Azərbaycan Respublikasının Parlamenti. Bakı 2008.

tiqamətində danışıqların aparılması, mətbuat və informasiya üzərindən bütün dövlət tənzimləyici mexanizmlərinin götürülməsi kimi məsələlərə yönəldildi. Sadalanmış addımların müsbət nəticələnməsi milli inkişafı sürətləndirməklə yanaşı, ölkənin dünyadakı demokratik imicini formalaşdıraraq beynəlxalq ictimaiyyəti daha geniş əməkdaşlığa həvəsləndirirdi.

Prezidentin siyasi mövqeyi belə idi ki, Azərbaycan bütün dövlətlərlə, o cümlədən, özünün şimal qonşusu olan Rusiya ilə bərabərhüquqlu əməkdaşlıq prinsipləri əsasında qarşılıqlı münasibətlər qurmalıdır. "Əsrin müqaviləsi"ndə və növbəti neft kontraktlarında Rusiyanın "LUKoyl" neft şirkətinə müvafiq payın ayrılması ilə bərabər ölkə neftinin Bakı-Qroznı-Tixoresk-Novorossiysk marşrutu ilə nəql olunması haqqında iki dövlət arasında Moskvada 18 yanvar 1996-cı ildə qəbul edilən qərarın uğurla həyata keçirilməsi,[1]Rusiyanın digər şirkətlərinin əməkdaşlığa dəvət olunması Azərbaycanın bu ölkə ilə qarşılıqlı-faydalı prinsiplər əsasında mehriban qonşuluq münasibətlərini genişləndirmək əzminin təzahürü idi.

Azərbaycanın öz siyasi xəttinə daim sadiq qalaraq öz hərbi qüdrətini artırmaqla yanaşı, regionu dünyanın aparıcı güc mərkəzlərinin mübarizə və çəkişmə meydanına çevrilməsinə imkan verməməsi, Ermənistanla müharibə vəziyyətində ikən öz milli ordusunun qurulması və hərbi qüdrətinin artırılması məqsədilə Rusiya ilə yanaşı Türkiyə, Pakistan, Ukrayna, NATO bloku ilə əməkdaşlığı ilbəil genişləndirsə də, onların Moskva ilə mübarizəsində ölkənin bitərəfliyini və neytrallığını qoruyub saxlaya bilməsi, MDB-nin KTMT-na qoşulmamaqla yanaşı, bəzi postsovet respublikaları kimi NATO-ya daxil olmaq niyyətinin də olmadığını bəyan etdiyi kursa baxış təqdim olunur.

Paraqrafda rəsmi Bakının Xəzər dənizinin statusu məsələsində Rusiyaya münasibətdə yürütdüyü siyasi xəttin müvəffəqiyyəti də geniş müzakirəyə çıxarılır.

Araşdırmada RF-nın milli təhlükəsizlik konsepsiyasının mühüm tərkib hissələrindən biri kimi milli azlıqların yaşadığı Şimali Qafqaz

---

[1] Чернявский Станислав. Россия и Азербайджан: Особенности и основные направления межгосударственного сотрудничества в постсоветский период. Кавказ глобализация. Том 4 выпуск 1-2, 2010. ст.33.

bölgəsində sabitlik və inkişafın davamlı təminatı məsələsi və Qəbələ RLS-in statusu problemi Azərbaycanın maraqları baxımından ətraflı təhlil edilmişdir.

İkinci fəslin **"Beynəlxalq və regional təşkilatlarda Azərbaycan və Rusiya münasibətlərində milli təhlükəsizlik məsələləri"** adlı paraqrafında Azərbaycan və Rusiyanın daha çox məsələnin həllində oxşar yanaşma nümayiş etdirməsi siyasətinin faktlarla təhlili təqdim olunur. Bu münasibətlərə V.Putinin qəbul etdiyi RF-nin "Milli Təhlükəsizlik Konsepsiyası", "Xarici Siyasət Konsepsiyası", "Hərbi Doktrinası" prizmasından baxılır. Həmçinin, iki dövlət arasındakı münasibətlərdə həlledici əhəmiyyət kəsb edən, onların inkişafına xüsusi təkan verən 08 - 12 yanvar 2001-ci il tarixli V.Putin - H.Əliyev görüşü və Bakı Sammitinin deklarasiyası, H.Əliyevin 24 - 26 yanvar 2002-ci il tarixli Moskva səfəri, qarşılıqlı münasibətlərin möhkəm özülünün əsasını qoyan "Azərbaycan – Rusiya arasında 2010-cu ilə qədər uzunmüddətli iqtisadi əməkdaşlıq barədə Saziş" qeyd edilir. Həmçinin, RF-nın Avrasiya İqtisadi İttifaqı birliyi və Vahid Gömrük İttifaqının yaradılması məsələlərindəki əsas prioritetləri, eləcə də Şərq–Qərb nəqliyyat və kommunikasiya dəhlizləri, enerji ehtiyatlarının ixracatı və nəqli kimi mühüm sahələr vasitəsi ilə Azərbaycanla iqtisadi və humanitar sahələrdə maksimum yaxınlaşmaya imkan verən hərtərəfli inteqrasiya hədəfləri müəyyənləşdirilmişdir.

Paraqrafda Bakı və Moskvanın strateji məsələlərə fərqli yanaşması ilə xarici siyasət kurslarında fikir ayrılığı yaradan aşağıdakı əsas amillər daha ətraflı tədqiq olunmuşdur:

1. Ermənistan-Azərbaycan münaqişəsinin həlli;
2. Azərbaycanın Rusiyaya və Avroatlantik məkana aid siyasi-hərbi bloklara inteqrasiyası məsələsində həyata keçirdiyi siyasi xətt;
3. Yaxın xaric ölkələrlə (keçmiş SSRİ respublikaları ilə) əməkdaşlıq, Gürcüstan, Moldova və Ukraynada baş verən münaqişələrə münasibətdə yürüdülən xarici siyasət.

Paraqrafda Rusiya - Gürcüstan müharibəsi və onun nəticələri, Azərbaycanın Rusiya və Avroatlantik məkana aid bloklara inteqrasiya məsələsində həyata keçirdiyi siyasi xətt kimi məsələlər ayrı-ayrı-

lıqda və Azərbaycanın milli təhlükəsizlik maraqları baxımından təhlil edilmişdir.

Paraqrafda Rusiya və Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən və regionun təhlükəsizliyinə xidmət edən məsələlər üzrə, o cümlədən, Moskva üçün həyati əhəmiyyət kəsb edən Şimali Qafqaz regionunda hərbi, ictimai-siyasi, iqtisadi sabitliyin təmin edilməsində davamlı əməkdaşlıq barədə razılaşma əldə olunduğu əsaslandırılır.

Bu paraqrafda Minsk Qrupu tərəfindən münaqişənin həlli üzrə danışıqlar, həmsədr ölkələrinin birgə bəyanatları, 2011-ci il iyunun 24-də Moskvanın təşkilatçılığı ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşləri və "Kazan prinsipləri" adlı görüş və sənədlərdən bəhs olunur. Həmçinin, ATƏT-in 2005-ci ilin 31 yanvar – 5 fevral tarixlərində[1] və 2010-cu ilin 7-12 oktyabr tarixlərində beynəlxalq faktaraşdırıcı missiyasının qiymətləndirmələrinin nəticələri Azərbaycanın milli təhlükəsizlik konsepsiyası baxımından qiymətləndirilir.

Bununla yanaşı, beynəlxalq müşahidəçilərin iştirakı ilə apardığı danışıqlarda Azərbaycanın münaqişənin həlli ilə bağlı Rusiyanın mövqeyində nail ola bildiyi bəzi dəyişikliklər təqdim olunur. Bu baxımdan Ermənistanla Azərbaycan arasında baş vermiş hərbi toqquşmaların doğurduğu hərbi, siyasi, beynəlxalq nəticələr də ətraflı təhlil olunmuşdur.

**"Azərbaycan – Rusiya münasibətlərində perspektivlər"** adlı III fəslin **"Azərbaycanın milli təhlükəsizliyi kontekstində hərbi və informasiya sahələrində Rusiya ilə münasibətlər"** adlı I paraqrafında Bakının hərbi siyasəti, Moskva və Bakının hərbi-siyasi doktrinaları qarşısında duran vəzifələr və çağırışlara baxış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yaranan yeni situasiyalar və Azərbaycanın prioritet addımları, Bakının Cənubi Qafqazda hərbi bazaların mövcudluğuna və keçmiş SSRİ məkanında NATO bazalarının yerləşdirilməsinə yanaşması, Azərbaycanın "Qoşulmama Hərəkatına" üzv olmasını doğuran səbəblər, RF-Ermənistan

---

[1] Report of the OSCE Fact-Finding Mission (FFM) to the Occupied Territories of Azerbaijan Surrounding Nagorno-Karabakh (NK). Available at: http://www.partnership.am/res/General%20Publicat_Eng/050317_osce_report1.pdf

hərbi ittifaqı və Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı kimi mühüm məsələlər təhlil olunur.

Paraqrafda təhlil olunan mühüm məsələlərdən biri də Xəzər dənizinin statusu ilə əlaqədar Rusiya ilə əldə olunmuş nəticələrin və yekun addımların Azərbaycanın milli təhlükəsizlik konsepsiyasına cavab verməsi qənaətidir.

RF-AR münasibətlərinin artan tendensiya ilə getdiyi müşahidə edilən hərbi sahədə əldə olunmuş mühüm uğur rəsmi Moskvanın Azərbaycanın Türkiyə, ABŞ və NATO ilə də hərbi sahədə qurduğu əməkdaşlığı getdikcə gücləndirməsini qəbul etməsidir. Bunun səbəbi, Azərbaycanın NATO ilə münasibətlərdə RF-nın təhlükəsizliyinə xələl gətirə biləcək addımlar atmamasıdır. Azərbaycan NATO ilə əməkdaşlığını "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəal şəkildə davam etdirir.

Xüsusi tədqiq olunmuş istiqmətlərdən biri də transmilli təhlükələrə qarşı mübarizə sahəsində Azərbaycan – Rusiya əməkdaşlığıdır. AR-nın coğrafi mövqeyi transmilli cinayətkarlığın onun milli təhlükəsizliyinə qarşı ciddi təhdidə çevrildiyini göstərir. Araşdırmada Azərbaycanın Rusiya ilə birgə əməkdaşlıq şəraitində mübarizə apardığı transmilli təhlükələr ön plana çıxarılır .

III fəslin **"Azərbaycan-Rusiya iqtisadi və humanitar əməkdaşlığı milli təhlükəsizliyin təminatı kimi"** adlı II paraqrafında AR-nın dinamik inkişaflı iqtisadi potensialının RF ilə münasibətlərin özülünü təşkil etməsi konkret faktlarla göstərilir və bu əməkdaşlığın Azərbaycanın milli təhlükəsizliyi üçün perspektivlərinin əhəmiyyəti əsaslandırılır.

Ölkələr arası hərbi-texniki əməkdaşlığın həcmi artıq milyardlarla ABŞ dollarını ötmüşdür, bu göstərici fəal şəkildə artmaqdadır. Azərbaycan hazırda dünyada Rusiya texnikasının alıcısı olan aparıcı ölkələr sırasına daxildir.

Mühüm diqqət ayrılan istiqamətlərdən biri də humanitar sahədə münasibətlərin inkişafı məsələsidir. Son illərdə Azərbaycan-Rusiya əməkdaşlığının göstəricisi olan Humanitar Forumların təşkili, Azərbaycanda rus dilinin inkişafına və tədrisinə lazımı diqqət göstərildiyi, rusdilli məktəblər və Rusiyanın ali təhsil müəssisələrinin filiallarının

fəaliyyəti, tərəflər arasında humanitar sahədə əməkdaşlıq proqramlarının imzalanması qeyd edilmişdir.

Dissertasiyada Azərbaycanın Qafqaz, Xəzər regionu, MDB çərçivəsi və aparıcı beynəlxalq strukturlarda Rusiya üçün ənənəvi və etibarlı iqtisadi tərəfdaş olmasını şərtləndirən amillər ətraflı tədqiq olunmuşdur. Paraqrafda son illər iki ölkənin iqtisadi, siyasi, təhlükəsizlik, sərhəd, sosial, mədəni və humanitar sahələrdə qarşılıqlı əlaqələrini nizamlayan çoxsaylı müqavilə və sazişlər, birgə fəaliyyət üçün yaradılmış hüquqi-normativ aktlar və qanunvericilik bazası təhlil olunmuşdur. Rusiya və Azərbaycan arasında imzalanan iqtisadi, energetika və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsini nəzərdə tutan sənədlər qarşılıqlı və geniş əməkdaşlığın nəticəsi olması Azərbaycanın milli təhlükəsizlik konsepsiyası qarşısında duran əsas hədəflərə nail olunduğu qənaətini sübut edir.

**Nəticədə** tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış geosiyasi aspektdən Azərbaycan dövlət maraqları milli təhlükəsizlik maraqları ilə üst-üstə düşməyən dövlətlərlə əhatə olunmuşdur. Bunlardan xüsusilə ikisi–Rusiya və İran Azərbaycana təsir göstərməyə qadir olan ciddi imkanlara malikdirlər. Ermənistan isə tam müstəqil dövlət olmasa da, ənənəsinə sadiq qalaraq özünün ərazi iddialarını təmin etmək məqsədilə malik olduğu Rusiyanın forpostu statusundan istifadə etməyə çalışır.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat kommunikasiyaları və dəhlizlərinin, həm də, Xəzər dənizində geostrateji rəqabətin mərkəzində durur ki, bu baxımdan, Rusiya üçün əhəmiyyətlidir.

Regional və beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan mühüm rola malikdir ki, qaz nəqlinə dair yürütdüyü strategiya onun dövlət və iqtisadi maraqlarının təmin olunması üzərində qurulub.

Azərbaycanın milli təhlükəsizliyinə qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması üzrə danışıqlar prosesində Ermənistanın destruktiv mövqeyi münaqişənin dinc yolla nizamlanmasını imkansız etdiyindən 2020-ci ilin 27 sentyabr tarixindən başlayaraq 44 gün sürən genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatlarında Azərbaycan hərbi-siyasi yolla Ermənistanın işğalı altındakı torpaqlarını azad et-

məsi təkcə ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil, eyni zamanda, həm respublikamız, həm də region üçün yeni siyasi-iqtisadi reallıqlar formalaşdıran, mühüm strateji perspektivlər təmin edən əhəmiyyətli geosiyasi amildir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi işlərində öz əksini tapmışdır:**

1. "Müasir Azərbaycan – Rusiya qarşılıqlı əlaqələrində Heydər Əliyevin rolu" // "H.Əliyevin dövlətçilik irsi və müstəqil Azərbaycanın inkişaf modeli" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları – 2012. Bakı. DİA Səh.165-171
2. "Müstəqil Azərbaycanın dövlət idarəçiliyinin ilkin mərhələsi. "Səmərəli dövlət idarəçiliyi: Zamanın çağırışları" mövzusunda Beynəlxalq elmi konfransının materialları 05-06 dekabr 2011. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012. DİA Səh.274-277
3. Azerbaycan Cumhuriyyeti'nde Devlet Yönetiminin Oluşturulması Sürecinde Haydar Aliyev'in Rolü (Rusiya Federasyonu ile ilişkiler Bağlamında) // Asia Minor Studiens (Uluslararası Hakemli Sosyal Bilimler Dergisi). Haydar Aliyev Özel Sayısı, Mayıs 2013 Kilis. Səh.117-123
4. Azərbaycan Respublikasında milli təhlükəsizlik sisteminin qurulması prosesi Rusiya Federasiyası ilə münasibətlər kontekstində. DİA, "Dövlət idarəçiliyi" Nəzəriyyə və təcrübə (Xüsusi buraxılış) N4 (56), 2016. Səh.178-184
5. Azərbaycan Respublikasında hərbi-siyasi və iqtisadi sabitliyin əldə edilməsində Rusiya faktoru. Geostrategiya jurnalı. "Azərbaycan" nəşriyyatı, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, N-3 (51) , may-iyun 2019, Səh.56-59
6. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının reallaşması Rusiya ilə münasibətlər kontekstində. Geostrategiya jurnalı. "Azərbaycan" nəşriyyatı, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, N-6 (54), noyabr-dekabr 2019, Səh.48-54
7. Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı sülhməramlılıq missiyasinin siyasi – hüquqi aspektləri.

3.International Baku scientific research congress October 15-16, 2021. Baku Eurasia University and Institute of Economic Development and Social Research (IKSAD), səh. səh.1141-1148

8. Güney Kafkasya'da Önemli Bir Güvenlik Sorunu olarak Karabağ Çatışması. (Qarabağ münaqişəsi Cənubi Qafqazın mühüm təhlükəsizlik problemi kimi)   Social science development journal SSD journal Open Access Refereed E-Journal & Refereed & Indexed, 2021 November Volume: 6 Issue: 28 pp: 64-71. http://www.ssdjournal.org/journalssd@gmail.com  Səh.64-71

9. "Şuşa bəyannaməsinin Cənubi Qafqazın regional təhlükəsizliyi üçün əhəmiyyəti və Rusiyanın maraqları." // Tarix və onun problemləri 2021.(oktyabr-dekabr) N 4.

10. "Фактор Азербайджана в российско-турецких отношениях" // Türkiye-Rusiya ilişkilerinin 100. yılı. Uluslararası bilimler sempoziumu. 11-13 Kasım 2021.